**“Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 30 iyun tarixli 161 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 30 iyun tarixli 161 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 585; 2007, № 10, maddə 1021; 2015, № 6, maddə 785) 1-ci hissəsində “10" rəqəmi “9” rəqəmi ilə əvəz edilsin və “Kollegiyanın üzvləri” bölməsi aşağıdakı redaksiyada verilsin:

**“Kollegiyanın üzvləri:**

| | | |
|---|---|---|
| Məmmədov Şahlar Əyyub oğlu | - | Dövlət Dəniz Administrasiyası rəisinin müavini |
| Rəhimov Ehtiram Bəşir oğlu | - | Dövlət Dəniz Administrasiyası rəisinin müavini |
| İsmayılov Əhməd Məhəmməd oğlu | - | Dövlət Dəniz Administrasiyası Aparatının rəhbəri |
| Rəhimov Vamik Malik oğlu | - | Dövlət Dəniz Administrasiyası Aparatının dəniz üzgüçülüyü şöbəsinin müdiri |
| Babayev Vahid Əlimirzə oğlu | - | Dövlət Dəniz Administrasiyası Aparatının gəmi heyəti şöbəsinin müdiri |
| Məmmədov Fərhad Rauf oğlu | - | Dövlət Dəniz Administrasiyası Aparatının hüquq, kadr və beynəlxalq əlaqələr şöbəsinin müdiri |
| Mirzəyev Seymur Əmirxan oğlu | - | Dövlət Dəniz Administrasiyası Aparatının gəmi qeydiyyatı və standartlarına nəzarət şöbəsinin müdiri |
| Xamoyev İsaməddin İslam oğlu | - | Dövlət Dəniz Administrasiyasının tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin direktoru” |

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 3 iyul 2017-ci il
№ 274